# 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür

***28 may 1918-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda ölkədə milli ordu yox idi. Hökumət həmin il iyunun 26-da ilk hərbi hissə - əlahiddə korpus təşkil olunması barədə qərar qəbul edib. Bu qərar müsəlman Şərqində ilk demokratik hökumətin öz ordusunu yaratmasına hüquqi əsas verib. Bunun ardınca hökumət tərəfindən ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında fərman verilib. Az bir vaxt ərzində Azərbaycanda milli ordu quruculuğunda əsaslı nəticələr əldə olunub.***



Xalqımızın ümummilli lideri Heydər Əliyevin 22 may 1998-ci il tarixdə imzaladığı fərmanla 1918-ci ildə - Azərbaycan Demokratik Respublikası dövründə general Səməd bəy Mehmandarovun rəhbərliyi ilə ilk əlahiddə Azərbaycan korpusunun yaradılmasına başlandığı gün - 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü elan edilib. Ümummilli lider Heydər Əliyev bu fərmanı ilə tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox gərəkli bir addım atıb.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin mümkün olmayacağı təqdirdə xalqın öz torpaqlarını azad etmək üçün silaha sarılacağını gizlətmir və Silahlı Qüvvələrin buna tam qadir olduğunu bəyan edir.

Cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan heç vaxt - nə bu gün, nə də yüz ildən sonra Dağlıq Qarabağı Azərbaycandan ayıra biləcək razılaşmaya getməyəcəkdir. "Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu başlıca şərtdir. Bunun kənarında heç bir razılaşma, heç bir saziş mümkün deyildir. İşğalçı qüvvələr zəbt olunmuş torpaqlardan çıxmalıdır", - deyə dövlətimizin başçısı bəyan edib.

Hazırda Cənubi Qafqazda ən güclü və hazırlıqlı ordu hesab edilən Azərbaycan Ordusunun qüdrətlənməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin müharibə yolu ilə həll ediləcəyi təqdirdə sözsüz ki, ölkəmizin üstünlüyünə zəmanət verir.

**“Qəbələ”**

# Stolüstü tennis yarışları

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbində silsilə tədbirlər həyata keçirilir. Onlardan biri də bu günlərdə məktəblilər arasında təşkil edilən stolüstü tennis üzrə rayon birinciliyi olmuşdur.

Məktəbin metodisti Kamran Cabbarov yarışların keçirilmə qaydalarını izah etmişdir.

Yarışın nəticələrinə görə Tüntül kənd tam orta məktəbin şagirdi Sənan Abdulxalıqov I yerə, Abrıx kənd tam orta məktəbin şagirdi Amil Agakərimov II yerə və Tüntül məktəblisi Turan Quliyev III yerə layiq görülmüşlər.

Qaliblər gələcək zona və respublika yarışlarında iştirak etmək hüququ qazanıblar.

---

# Fəxri fərman təqdim olunmuşdur

Bu günlərdə rayonun Nohurqışlaq kənd tam orta məktəbində müəllim və şagirdlərin iştirakı ilə idmana həsr olunmuş toplantı keçirilmişdir. Toplantıda məktəbin direktoru Yaqub Tahirov idmanın əhəmiyyəti haqqında danışaraq şagirdlərə son 1 ildə bu sahədə qazanılmış nailiyyətlər haqqında məlumat vermişdir.

Sonra Qəbələ Rayon Uşaq Gənclər İdman-Şahmat məktəbinin direktoru Ədalət Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən Respublika Şahmat Festivalında uğurla çıxış etmiş məktəbin üçüncü sinif şagirdi Aysun Əzizliyə Fəxri fərman təqdim etmişdir.

**Nərmin RİZVANOVA.**

# Alimlər musiqinin təbiətə təsirini öyrəniblər

*Gözəl musiqini ruhun qidası hesab edirlər, lakin onun sehrinə təkcə insanlar deyil, təbiətdə də düşənlər var. Klassik musiqinin delfin və köpək balıqlarına müsbət təsir etdiyi də məlumdur.*

*Alimlər musiqinin təbiətə təsirini öyrənmək üçün bitkilər üzərində müşahidələr aparıblar. Məlum olub ki, klassik musiqi sədaları altında noxud iki gün tez yetişir, buğda isə daha tez boy atır. Aqressiv musiqilərin səslənməsi isə bitkilərin tez solmasına səbəb olur.*

*Musiqi dinləyərkən insanlar melodiyaya, çiçəklər isə ritmə münasibət bildirir. Sakit və klassik musiqilər hətta suyun üzündə də gözəl fiqurlar yaranmasına səbəb olur. Suyun yanında mənfi yüklü musiqinin səslənməsi zamanı molekulların daha xaotik hərəkəti müşahidə edilir.*

# Müsəlman Şərqinin ilk respublikası-Azərbaycan Xalq Cümhuriyyəti

(Əvvəli 3-cü səhifədə).

1919-cu il iyulun 21-də parlament “Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında” Əsasnaməni təsdiq etdi. Həmin il avqustun 11-də parlament tərəfindən qəbul olunmuş “Azərbaycan vətəndaşlığı haqqında” qanuna görə özü və ya valideynləri Azərbaycan ərazisində anadan olmuş keçmiş Rusiya imperiyasının bütün təbəələri milli və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan vətəndaşı hesab olunurdu. Xalq maarifi sahəsində ciddi nailiyyətlər qazanıldı. Orta məktəblərin təxminən yarısı milliləşdirildi, məktəblərdə rus tarixi əvəzinə, ümumtürk tarixi tədris olunmağa başladı, bütün məktəblərdə Azərbaycan dilinin tədrisi məcburi hesab olundu. 1919-cu il sentyabrın 1-də Bakı Universitetinin təsis olunması haqqında qərar qəbul olundu. Dərslər noyabrın 15-də başlandı. Kənd Təsərrüfatı İnstitutunun yaradılması haqqında qanun qəbul olundu. 1919-cu ilin oktyabrında mətbuat sahəsində senzura ləğv edildi.

Azərbaycanın müxtəlif regionlarında kişi və qadın seminariyaları açıldı, dövlətin hesabına yüzə yaxın gənc azərbaycanlı ali təhsil almaq məqsədilə Avropanın universitetlərinə göndərildi. Ticarəti və daxili bazarı dirçəltmək məqsədilə 1918-ci il avqustun 27-də azad ticarət haqqında fərman verildi, oktyabrın 30-da ticarət donanmasının fəaliyyəti bərpa olundu. 1919-cu ilin yayında Azərbaycan Xəzər donanması yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz ərazisi 97,3 min kvadrat kilometr idi. Gürcüstanla 8,7 min kvadratkilometr, Ermənistanla isə 7,9 min kvadratkilometr həmsərhəd ərazi Azərbaycan hökuməti tərəfindən mübahisəli torpaq sayılırdı. Azərbaycanın əhalisi 2 milyon 862 min nəfər idi ki, onun 70 faizini müsəlmanlar təşkil edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə müstəqil respublikanın ədliyyə, məhkəmə, polis və prokurorluq orqanlarının yaradılmasına xüsusi əhəmiyyət vermişdir. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsi və onun tabeçiliyində prokurorluğun fəaliyyəti bərpa edilmiş, başqa sözlə prokurorluq orqanları yaradılmışdır. Təsadüfü deyildir ki, elə həmin tarix əsas götürülərək Azərbaycan Respublikasının Prezidenti ümumilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə hər ilin oktyabrın 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı kimi qeyd edilməsi qərara alınmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 14 noyabr 1918-ci il tarixli qərarı ilə «Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə» təsdiq edilmişdir. Əsasnamənin 5-ci maddəsinə əsasən Azərbaycan Məhkəmə Palatası yanında prokuror və onun müəyyən sayda yoldaşı (müavini - İ.A) olmuşdur. Azərbaycan Məhkəmə Palatasının və onun yanındakı Prokuror Nəzarətinin hakimiyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilirdi.

Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövründə prokurorluq orqanları haqqında geniş və hərtərəfli müvafiq normativ hüquqi akt qəbul edilməmişdir. Səbəb ondan ibarət idi ki, Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin kifayət qədər dövləti idarə etmək təcrübəsi yox idi. Digər tərəfdən, əsas səbəb ondan ibarət idi ki, Azərbaycan Xalq Cümhuriyyəti nisbətən qısa müddət - cəmisi 23 ay yaşamışdır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 23 iyun 1918-ci il tarixdə «Rusiya və Zaqafqaziya qanunlarının qüvvəsinin müvəqqəti saxlanılması haqqında» qərar qəbul etmişdir. Qərara görə həmin vaxt qüvvədə olan bütün idarəçilik və məhkəmə sahələrini əhatə edən qanunlar, nəzərdə tutulmuş qaydada, hökumət tərəfindən ləğv və ya dəyişilməyincə öz qüvvəsini saxlayır.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə prokurorluq məhkəmə orqanlarının tərkibində fəaliyyət göstərməklə, əsasən məhkəmədə dövlət ittihamını müdafiə etmək funksiyasını həyata keçirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ədliyyə naziri eyni zamanda Respublika prokuroru vəzifəsini yerinə yetirirdi. X. Xasməmmədov, A. Səfikürdiski və T. Makinski Azərbaycan Xalq Cümhuriyyətinin ədliyyə nazirləri, eyni zamanda Xalq Cümhuriyyətinin ilk Baş prokurorları olmuşlar.

1920-ci ildə mövcud tarixi şəraitin doğurduğu qarışıqlıqlar içərisində itirilmiş milli dövlətçiliyimizin XX əsrin sonunda yenidən bərpası xalqımızın milli-azadlıq ruhunun yaşadığını təsdiqlədi. 27 il əvvəl, 1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul olunması ilə Azərbaycan tarixin yeni mərhələsinin başlangıcına qədəm qoydu.

Xalqın təkidi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizin davamlı və əbədi olması yolunda qətiyyətli addımlar atıldı və bu sahədə qarşıya çıxan çətinliklər aradan qaldırıldı.

Bu gün Heydər Əliyev siyasi kursunun layiqincə davam etdirilməsi, Prezident İlham Əliyevin düşünülmüş strategiyası müstəqil Azərbaycanı dünyanın inkişaf etmiş demokratik dövlətlərindən birinə, beynəlxalq aləmdə söz sahibinə çevirib.

21 may 2018-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş konfransda Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun qeyd etdiyi kimi “Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ölkəmizin çoxəsrlik tarixinin ən şərəfli və parlaq səhifələrindən biri kimi böyük ruh yüksəkliyi ilə qeyd edilməklə, xalqımız müasir Azərbaycan dövlətinin müstəqilliyinin və suverenliyinin bütün atributlarına sahib olmasından və onun qorunub saxlanılmasının etibarlı əllərdə olmasından qürur hissi duyaraq işıqlı gələcəyinə tam inamla baxır”.

**Zamir PAŞAYEV,**
**Qəbələ rayon prokurorunun köməkçisi.**